**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 208**

**Bakı şəhəri, 8 may 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 3 mart tarixli 93 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası üzvlərinin Siyahısı"nda dəyişiklik edilməsi barədə**

"V.A.Kərimlinin Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 aprel tarixli 3878 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 3 mart tarixli 93 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası üzvlərinin Siyahısı"nın "Komissiyanın üzvləri" bölməsində "Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Bakı Nəqliyyat Agentliyinin Baş direktoru" sözləri "Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**